*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.261-269*

https://doi.org/10.62837/2024.10.261

**KƏMALƏ OQTAY QIZI BAYRAMOVA**
**Azərbaycan Universiteti**
**mrs.bayramova.kemale@gmail.com**
**Orchid id: 0000-0002-2233-0399**

# SÜLEYMAN VƏLİYEVİN HEKAYƏLƏRİNDƏ AVTOBİOQRAFİZMİN TƏZAHÜRÜ

Məqalə XX əsr Azərbaycan yazıçısı Süleyman Vəliyevin hekayələrində avtobioqrafik cəhətlər, müəllifin hansı səbəblərdən bu üsluba müraciət etməsi məsələlərindən bəhs edir. Yazıçının hekayələrində gənclik illərinin təsadüf etdiyi 30-cu illərdəki sosial vəziyyət və sovet rejiminin təbliğatı arasındakı kəskin fərqin təzahür səviyyəsi, müharibədə əsir düşdüyü zaman sovet dövlətinin ona (həmçinin onunla eyni taleyi bölüşən digər vətəndaşlara) ögey münasibətinin inikası dərəcəsi kimi məsələlər təhlil edilir. Göstərilir ki, yazıçının öz həyatından yazmasının səbəbi təkcə "bədii mən"ini yaratmaq istəyindən irəli gəlmir. Yazıçı bu vasitə ilə yaşadığı zaman kəsiyində senzuranın çərçivələrinə uyğun şəkildə Azərbaycan xalqının sosial vəziyyətini bədiiləşdirməyə çalışmışdır.

**Açar sözlər:** avtobioqrafizm, fəhlə, müharibə,əsir, sovet, hekayə janrı

**К. О. БАЙРАМОВА**

# ПРОЯВЛЕНИЕ АВТОБИОГРАФИЗМА В РАССКАЗАХ СУЛЕЙМАНА ВЕЛИЕВА

**Резюме:** В данной статье обсуждаются автобиографические черты и причины их появления в рассказах писателя XX века Азербайджана Сулеймана Велиева. Разбираются разницы между степенью проявления резкого отражения пропаганды советского государства и социальным положением 30-ых годов.Так же видны отношения советского государства,когда он был в плену(одновременно не только ему,а всем гражданам одинаковой судьбы).Доказывается то, что это явление не причина создания “художественного меня". Писатель этим методом, в рамках цензуры времени создания этих произведений, хочет описывать социальное обеспечение азербайджанского народа.

**Ключевые слова:** автобиография, рабочий, война, пленный, советский, жанр рассказа

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 261-269*

**K.O. BAYRAMOVA**

# THE MANIFESTATION OF AUTOBIOGRAPHY IN THE STORIES OF SULEYMAN VALIEV

**Summary:** The article discusses autobiographical aspects in the stories of 20th-century Azerbaijani writer Suleyman Valiyev, as well as the reasons behind the author's preference for this style. It analyzes issues such as the level of reflection of the stark contrast between the social conditions of the 1930s, coinciding with the writer's youth, and the propaganda of the Soviet regime. It also examines the degree to which the writer portrays the estranged attitude of the Soviet state toward him and other citizens who shared his fate when he was captured during the war. The article demonstrates that the writer's decision to write about his own life was not solely driven by a desire to create his "artistic self." Through this approach, the writer sought to artistically represent the social conditions of the Azerbaijani people during his era, aligning his works with the constraints of censorship.

**Key words:** autobiography, worker, war, prisoner, soviet, story genre

Süleyman Vəliyev ədəbiyyata 30-cu illərin əvvəllərində gəlmişdir. 1932-ci ildə ilk hekayəsi olan "Əmanət kassası" dərc olunan zaman cəmi 16 yaşı var idi. Qələm təcrübəsinin olmaması və 30-cu illərin qorxunc ideolojisi daxilində yazmaq faktoru onun yaradıcılıq axtarışlarına və mövzu seçiminə təsirsiz ötüşə bilməzdi. İlk hekayələrindən başlayaraq bir çox irihəcmli əsərlərində avtobioqrafizm elementlərinə geniş yer vermişdir. İlk əsəri olan "Əmanət kassası"nı yazarkən ailəsinin başına gələn hadisəni qələmə almışdır. Bu sadə süjetli hekayə və oçerklər yazıçının yaxından bələd olduğu, şəxsən yaşadığı hadisələr və tanıdığı insanlar haqqında yazılmışdı. Ədəbiyyatşünas-alim Təyyar Salamoğlu deyir: "Məlumdur ki, hər bir yazıçı daha yaxşı bələd olduğu mühitdən mövzu seçməyə üstünlük verir" (3, səh.20). Süleyman Vəliyev də sonrakı illərdə də bələd olduğu mövzulardan yazmaq tendensiyasını davam etdirir və bunu başlıca yaradıcılıq prinsipinə çevirir. Yazıçıya görə bədii həqiqət mütləq həyat həqiqətinin məhsulu olmalıdır: "Yazıçı təxəyyülü real hadisələr fonunda "bəzənərsə" oxucunun qəlbinə yol tapar, onu inandırar və razı salar" (8, s.12). Yaradıcılığında tarixi şəxsiyyətlər, görkəmli ədiblərimiz barəsində oçerklərə rast gəlinsə də Süleyman Vəliyevin irsinin əsas hissəsini canlı şahidi olduğu hadisələr, yaxın keçmişlə bağlı eşitdiyi məlumatlar, xatirələr, tanıdığı insanlarla bağlı mövzular təşkil edir. O, uşaqlıq və gənclik illərinin təsvirini bir çox hekayələrində qələmə alır və avtobioqrafik obrazlar yaradır.

Süleyman Vəliyevin uşaqlıq illərini əks etdirdiyi əsərlərindən biri "Kəllə qənd" (1967) hekayəsidir. Müəllif zahiri planda məişət mövzusunu təsvir etsə də, əsəri oxuyan zaman dövrün sosial problemləri, Azərbaycan xalqının çətin güzəranı qeyri-ixtiyari şəkildə diqqəti cəlb edir. XIX əsrin sonu XX əsrin əvvəlləri üçün aparıcı mövzu olan neft sahəsinə, sahibkar-fəhlə münasibətlərinə həsr olunmuş

hekayədə yazıçı özünün və atasının prototipini yaradır. Hidayət obrazı vasitəsi ilə ağır keçən uşaqlıq illərinin təbii təsvirini təhkiyə yolu ilə verir: “Hidayətin uşaqlığı çox ağır keçmişdi. Atası Məlik kişi fəhləlik etməklə ailəsini güclə saxlardı. Yeməkdən həmişə korluq çəkərdilər. Xüsusən, şirniyyat və qənddən... bir dəfə vəziyyətləri elə ağır olmuşdu ki. Bayramda çay içməyə qəndləri belə yox idi” (8, s.45). Hidayət atasının boğazından kəsərək verdiyi qəpikləri yığır və dükanlarda az tapılan kəllə qənd alaraq bərk gün üçün saxlayır. İşlədiyi neft mədənində sahibkarla sözləşərək qanıqara şəkildə evə gələn atasının “bir tikə qənd olsaydı” sözünə qarşılıq gizlətdiyi qəndi üzə çıxarır. Yığdığı qəpik-quruşun qədrini bilən oğlu ilə fəxr edən atanın sevinci bir cümlədə əks olunur: “Hidayətgilin evində elə bil toy-bayram idi” (8, s.46). Kiçik bir xatirənin təsviri kimi qələmə alınan hekayədə yazıçının üslubu dövrün tabularına uyğun gəlir. Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov həmin dövrün ədəbi mənzərəsini təhlil edərkən yazır:“30-cu illər ictimai həyatında baş verən dəyişikliklər, ailə-məişət, sevgi-əxlaq, köhnə və yeninin mübarizəsi, meşşanlığın təsviri bədii nəsrin əsas tədqiq obyektlərindən idi” (1, s. 285).

“Kəllə qənd” hekayəsi həmin dövr üçün “ədəbi dəb” sayılan ailə-məişət mövzusunda yazılmış, tərbiyəvi cəhəti qabardılmaqla uşaq ədəbiyyatının nümunəsi kimi qələmə alınmışdır. Müəllif avtobioqrafik obraz olan Hidayətin atası Məlik kişinin fəhlə kimi çalışdığı mədənin sahibkarı ilə mübahisəsi zəminində ağa-fəhlə sinfi arasındakı bərabərsizliyin bədii tablosunu çəkir. Sahibkarın Məlik kişiyə münasibəti məhz həmin dövr sahibkar-fəhlə münasibətinin tipik forması kimi səciyyələnir. Hadisə Məlik kişinin dilindən söylənilir: “Yorğun-arğın evə gəlirdim. Onu görüb ağızucu salam verəndə məni saxladı. “Belə salamı azğın adam verər”-dedi. Mən də “varlılar azğın olur”-dedim. O, məni hədələdi: bu sözdən ötəri cəzanı alacaqsan, ən azı beş manat cərimə!” (8, s. 46)

Məlumdur ki, Süleyman Vəliyev 30-cu illərdə Həmkarlar İttifaqının təşkil etdiyi “İşçi müəlliflər kabinəsi”ndə gənc ədəbiyyatçılar dərnəyinin fəal üzvlərindən biri idi. Yazıçı həmin illərin təsvirini “yolpulu” kimi kiçik məsələlərin fonunda əks etdirir: “İdarənin mühasibi Bakı qəsəbələrindən gələn müdavimlərə ayda bir dəfə yol pulu verirdi... Ramanadan Sabunçuya avtobus, oradan da şəhərə elektrik qatarı işləyirdi. Biz avtobusa minməzdik, iki qəsəbə arasında olan yolu piyada gedirdik... Etiraf edim ki, “İşçi müəlliflər kabinəsindən” aldığımız yol pulu çörək və ərzaq almaq üçün karımıza gəlirdi. Çünki dolanacağımız yaxşı deyildi, “müvəqqəti çətinliklər” vardı. Bir tikə çörəyin, bir qəpik pulun qiymətini bilirdik” (7, s.12). Süleyman Vəliyev burada bir çox ədiblərdən dərs almışdır.

Süleyman Vəliyev uşaqlıq illərini “Çörək” hekayəsində bədbin notlarla təsvir edir:“Mən uşaqkən çölə oynamağa gedəndə əlimə pendir-çörək və göy soğan alıb iştaha ilə yeyərdim. Ət xörəyinə çox vaxt tamarzı qalardıq” (9, s.345). Lakin əsərlərində uşaqlıq və gənclik illəri olan 20-30-cu illəri təsvir edərkən yazıçının süni

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 261-269*

nikbinlik ab-havası yaratması cəhdlərinin əsasında rejimin diktəsi faktoru aydın hiss olunur. Çünki tədqiqatçıların da qeyd etdiyi kimi"XX əsrin 20-30-cu illəri ölkəmizin tarixinin ən faciəli və mürəkkəb səhifələrindən biri olmaqla yanaşı, həm də tariximizin ən çox saxtalaşdırmaya məruz qalan səhifələrindəndir. Sovet dövründə həmin illər Azərbaycanda Lenin təliminin təntənəsi, «xoşbəxt sosializm cəmiyyəti» quruculuğu kimi təqdim olunurdu" (2, s.44).

S. Vəliyevin ömrünün sonunda qələmə aldığı memuarında bu illərlə bağlı xatirələrində sosial vəziyyət və təbliğat arasındakı kəskin fərq qabarıq və daha səmimi şəkildə ifadə diqqətə çatdırılır: "Adamlar bir tikə çörəyə həsrət yaşayırdılar. Axşamlar itlər ulayırdı. Ramana qəbristanlığı böyüyürdü. Ancaq mədəniyyət ocaqlarının divarlarına vurulan: "Həyat yaxşı olub, şən olub" şüarını görəndə heç kəs bir söz deyə bilmirdi" (7, s.7). 30-cu illərin əvvəlindəki qida qıtlığı məsələsinin təsviri rus yazıçısı A.Soljenitsının bu illərlə bağlı qeydləri ilə də oxşarlıq təşkil edir: "Qida məsələsi 1931-33-cü illərdə kəskin şəkildə pisləşdi. O vaxt bu yöndə nəinki həbsxanalarda, heç yerdə vəziyyət yaxşı deyildi" (4, s.427).

Ukrayna tarixində "Qolodomor", Qazaxıstanda və SSRİ-nin başqa respublikalarında aclıq illəri kimi iz salan 30-cu illər Azərbaycan xalqının sosial vəziyyətinə də təsirsiz ötüşməyib. S.Vəliyev də həmin dövrün canlı şahidi olmuşdur: "Otuzuncu illərdəki aclıq, bir parça çörək həsrətində olduğum günləri də heç zaman unuda bilmirəm. Çörək dükanlarının qabağında gecədən növbə tutardıq. Növbələrin ucu-bucağı görünməzdi. Ertəsi günü böyük müsibətdən sonra bir kömbə çörək alıb evə gətirəndə özümüzü xoşbəxt sayardıq. Çörək kartoçka sisteminə keçəndə (işləməyənə 400 qram, fəhləyə isə bir kilo verirdilər. Çörək ona görə çox yeyilirdi ki, başqa ərzaq yox idi) Ramana mədənində fəhləliyə başladım"(7, s.5).

Tədqiqatçı Faiq Şirinovun da qeyd etdiyi kimi "Süleyman Vəliyevin yaradıcılığında müharibə tematikası 1940-cı ildə qələmə aldığı "Zbruçun o tayında" bədii-sənədli əsəri ilə başlayır" (6, səh. 37). Ədəbiyyatımızda II Dünya müharibəsi səhnələrini əks etdirən ilk əsərlərdən olan bu xatirə-hekayəsində baş qəhrəman avtobioqrafik cizgiləri daşıyır. Lakin yazıçı bu obraz vasitəsilə yalnız öz prototipini yaratmamışdır. Onun qəhrəmanı ümumiləşmiş azərbaycanlı qızıl əsgər obrazıdır. O, cəsur, yenilməz, çətinliklərlə mübarizə aparmağa qadir, düşmənə qarşı amansız olsa da, insani keyfiyyətlər olan rəhmlilik, dürüstlük, dostluqda sadiqlik kimi xüsusiətlərin daşıyıcısı, yeri gəldikdə bağışlamağı, yeri gəldikdə isə son tikəsini dostları ilə palaşmağı bacaran milli obrazdır. Vətənpərvərlik ruhunda yazıya alınmış əsərdə hadisələr baş qəhrəmanın dilindən danışılır.

"Meh əsəndə" hekayəsində də mövzusu Lvov şəhərinin faşist işğalından təmizlənməsinə həsr olunmuşdur. Yazıçı burada da həlledici döyüşləri, müharibənin acı nəticələrini poetik dillə təsvir edir: "Ağır döyüşlərdə yaralandım, sağalandan sonra təkrar Ukrayna cəbhəsində vuruşmalı oldum... Biz Ukrayna cəbhəsinin dördüncü tank ordusu tərkibində idik. Faşistlər Lvovda möhkəm məskən salmışdılar.

Küçə döyüşlərində çoxlu tələfat olurdu. O zaman şəhərin hər binası uğrunda vuruşurduq. Gözəl Lvov o zaman yaralı pərini xatırladırdı. Uçulmuş vağzal, yerlə-yeksan olan binalar...” (8, s.25)

S.Vəliyevin həyatında hərbi fəaliyyətin uzun müddət davam etməsi səbəbi ilə onun yaradıcılığında da döyüş, müharibə və onun nəticələri mövzusu da əsas istiqamətlərdən biri kimi formalaşır. O, hərbi xidmətdən qayıtdıqdan sonra 1940-cı ilin oktyabrında xalq şairi S.Vurğunun köməyi ilə Azərbaycan Yazıçılar İttifaqının Hərbi vətənpərvərlik şöbəsinin müdiri təyin edilir və burada çalışır. 1941-ci ildə Böyük Vətən müharibəsi başlanır və bu gənclik çağı sovet rejiminin ən kritik dövrünə təsadüf edən yazıçının da taleyində məşəqqətli bir dönəmin başlanmasına rəvac verir. Ədəbiyyatşünas-alim Bədirxan Əhmədovun dediyi kimi “döyüşən ordu ilə ədəbiyyat ordusunun imkanlarını və gücünü birləşdirmək, əsgərləri, xalqı mənəvi susrsatla təmin etmək məqsədilə Azərbaycan yazıçıları da səfərbər olunur” (1, s.330). Azərbaycan ədəbiyyatının dəyərli şairi Səməd Vurğun onun arxa cəbhədə qalıb jurnalist kimi çalışması üçün nə qədər təkid etsə də S.Vəliyev könüllü şəkildə müharibəyə yola düşür. Müharibənin ilk günlərində-1941-ci il iyunun 29-da “Ədəbiyyat” qəzetində S.Vəliyev, Ə.Vəliyev, M.Cəlal, H.Araslı, M.Rzaquluzadənin imzası ilə çap olunan “Qəhrəman ordu sıralarına” adlı məktubun məzmunu yüksək pafosla səciyyələnir: “İndi məsələ qüdrətli Sovet dövlətinin bütün qüvvəsilə aqressora sarsıdıcı zərbə endirməkdən ibarətdir... Azğın faşist Almaniyasının ana Vətənimizə qəflətən hücum etməsi çoxmilyonlu sovet xalqının hiddət və nifrətinə səbəb olmuşdur. Bu yazıçılar bu coşğun xalq qəzəbini ancaq sözlə-bədii surətdə ifadə etməklə kifayətlənməyərək, Qızıl Ordu sıralarına daxil olub, öz qələmimizi süngülərlə əvəz edərək, var qüvvəmizi Vətənimizin müdafiəsinə veririk” (7, s.34).

S.Vəliyev iştirak etdiyi hadisələr, döyüşlər zamanı bir sıra qeydlər götürmüş, sonralar bu qeydlərdən istifadə edərək “Yenidən cəbhəyə”, “Qürbətdən vətənə” və s. kimi avtobiqrafik xarakterli əsərlər yazmışdır. Bu əsərlərdə diqqət çəkən cəhət müharibə əleyhinə, vətənə (sovet ölkəsinə) bağlılıq haqqında təmtəraqlı cümlələrin çoxluq təşkil etməsi, yazıçının üslubunda sosialist realizminin açıq-adın hiss edilməsidir: “Müharibə günlərində sovet adamlarının dözümünə necə də heyran olmayasan?! Qələbəyə inam, insan dözümü hər şeyə üstün gəlirdi...” (8, s.89)

Tədqiqatçı alim Nəsiman Yaqublunun “Azərbaycan legionerləri” adlı tədqiqat əsərində məlumat verir ki, müharibə illərində (1941-1945-ci illərdə) əsgər paltarı geyinən 32 milyon nəfərin 5 milyon 734 min 528-i əsir düşmüşdü (11, səh.101). Süleyman Vəliyev də 1942-ci ilin may ayının 8-də Krım yaxınlığında, Kerç uğrunda gedən döyüşlərin birində kontuziyaya uğrayaraq əsir düşür. Yazıçı əsir düşdüyü vaxt 416-cı Azərbaycan diviziyasının "Azərbaycan döyüşçüsü" adlı qəzetində hərbi müxbir idi.

S.Vəliyev əsir düşməsi, almanların əsirlərə qarşı amansız davranışları ilə bağlı xatirələrinə bir çox əsərlərində geniş və ya epizodik şəkildə yer vermişdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 261-269*

"Təşəkkür" hekayəsində də yazıçı əsirlik həyatını paylaşdığı həmvətəni ilə Bakıda rastlaşması, bununla da həmin çətin günlərin xəyalında canlanmasını bədii düşüncə predmetinə çevirmişdir. Hekayədə faşistlərin əsir aldıqları sovet vətəndaşlarını yük vaqonlarında Almaniyaya aparıdıqları zaman nümayiş etdirdikləri qəddarlıq real hadisələr zəminində əks olunur. Yazıçı hekayənin əvvəlində əsirlərin vaqonlarında yük kimi daşınmasının acınacaqlı mənzərəsinini yaradır: "Bizim vaqonda iynə atsan yerə düşməzdi. Hamı ayaq üstə durmuşdu, oturmaq mümkün deyildi. Aclıq bir yana, susuzluqdan yanırdıq. Mən lap haldan düşmüşdüm. Ağzım qurumuşdu, təngənəfəs idim. Başım gicəllənirdi. Az qalırdı ki, yıxılam, ancaq hara? Adamlar məngənə kimi bir- birini sıxırdı" (8, s.359). Bu hələ əsirlərə qarşı rəftarın kiçik bir hissəsidir. Faşistlər əsirlərə bir qab suyu belə çox görür. Ukraynada stansiyada dayanan qatarın əsirlərlə dolu olduğunu görən ukraynalı qadınlar onlara su vermək istəyir, qatara yaxınlaşırlar. Lakin yenə də su içmək hər kəsə qismət olmur: "Əsirlər bu zaman ipin bir ucunu boş şüşə və ya konserv bankasına bağlayaraq şəbəkəli, kiçik pəncərədən aşağı buraxır, sonra su ilə dolu yuxarı çəkirdilər. ancaq belə xoşbəxtlik hamıya qismət olmurdu. Yalnız uzun və qüvvəli adamlar bu işin öhdəsindən gəlirdilər. Mənim əlim şəbəkəli, kiçik pəncərəyə belə çatmırdı. Balaəli adlı yoldaşım boyca uzun olduğundan kefi saz idi. O, bir banka su alıb bir qədər içdi. Nə gizlədim, mən həsrətlə onun ağzına baxırdım. O, halıma yandı. Suyun tən yarısını mənə verdi... Sonra faşistlər bizə su verən qadınları hədələyərək qovdular" (8, s.359). Daha sonra hekayədə yazıçı təsadüfən rastlaşdığı adamın həmin Balaəli olduğunu təxmin etməsindən, onu axtararaq, tapmasından və çətin zamanda verdiyi bir neçə qurtum su üçün təşəkkürünü bildirməsindən bəhs edir.

"Gözlənilməyən məktub" hekayəsində də yazıçı yaşadığı həyat həqiqətlərini qəhrəmanının başına gəlmiş hadisələr kimi təsvir etsə də yazıçının həyatına yaxından bələd olmaq bu əsərdə də avtobioqrafik cizgilərin tapılmasına imkan verir. Hekayədə neftayırma zavodunda işləyən Sərvərin məktəbli qızı Lalə Almaniyadan-qiyabi tanış olduğu məktəbli yoldaşından məktub alır. Məktubu göndərən alman qızın atasının adı Fritsdir. Sərvərin yadına müharibədə yaşadığı dəhşətli günlər düşür. Onun dilindən deyilən: "Mən onun yaxınlığındakı məşhur Ravensburq ölüm düşərgəsində olmuşam. Ora mənim cəhənnəmim olub, cəhənnəmim!" (8, s.370) cümlələri əslində elə müəllifin yaşanmış hisslərinin bədii inikasıdır.

Minlərlə əsir kimi Qankoy adı verilən ilkin seçmə məntəqəsində yazıçının sağlamlıq dərəcəsi yoxlanıldıqdan sonra işləmək iqtidarında olan digər əsirlərlə birlikdə onu da Sloveniya ilə İtaliya sərhədlərində yerləşən, sənaye müəssisələri ilə zəngin olan Triyest vilayətinə, Adriatik dənizi sahillərinə aparırlar. Sovet dövləti o illərdə əsir düşən minlərlə vətəndaşı kimi Süleyman Vəlievdən də imtina etsə də, yazıçı 80-ci illərə qədər əsərlərində yalnız alman faşizmindən, əsirlərə qarşı amansız davranışlarından, vəziyyətin faciəviliyindən bəhs etmiş, yaşadığı, gördüyü olayları taleyin naxışı kimi qələmə vermişdir. Sanki bütün bu olayların baş verməsində qeyri-

adi heç nə yoxdur. Müharibədə əsir düşmək nə qədər təbiidirsə, əsirlikdə baş verənlər də əsir taleyinin mümkün gedişatına daxildir: "Axşam yanımda yatan yoldaşımı səhər duranda ölmüş görürdüm. İndiyə kimi ancaq canı bərk adamlar qalıb. Mənim bir yoldaşım danışır ki, zibil qutusunda kartof qabığı axtararkən, əlinə tüklü bir şey dəyir. Onu özünə tərəf çəkdikdə insan başı olduğunu görür. Demə, kimsə orada yemək axtararkən canı çıxıb" (10, s.20).

İki həftə mühasirədə qaldığı müddətdə yazıçı dəhşətli faciələrin şahidi olmaqla yanaşı çox inandığı rejimin öz vətəndaşlarına ögey münasibətini də dərk etmiş olur. S.Vəliyev dərk edir ki, əsirlərə qarşı bu münasibət SSRİ hökumətinin müharibəyə daha çox diqqət ayırması fonunda kiçik gözdən qaçma, nəzərdən yayınma deyildi. Stalin hökuməti əsir düşən vətəndaşlarını vətən xaini hesab edirdi. Yazıçının bu müşahidəsini kənar ideoliji qiymətləndirmə də təsdiq edirdi. Məsələn, tarixçi alim Nəsiman Yaqublu həmin məsələni təhlil edən zaman yazırdı: "Qərb tədqiqatçıları sübut edirdilər ki, sovet əsirlərinin belə çox sayda həlak olmasının səbəbi faşizmdə deyil, Stalin sisteminin özündə idi. Əsirlərin çoxu acından həlak olurdu və onları xilas etmək mümkün idi. Lakin Stalin onları Vətən xainləri adlandırmış və Beynəlxalq Qırmızı Xaç vasitəsi ilə ərzaq göndərməkdən imtina etmişdi" (11, s.102). Lakin yazıçı bu ögeyliyi dərk etməsi haqqında fikirlərini belə yalnız 80-ci illərin sonlarından etibarən yazıya köçürməyə imkan tapır. Buna səbəb mövcud sistemin və ideologiyanın senzura yolu ilə buna imkan verməməsi idi.

Süleyman Vəliyevin xatirə-hekayələri kimi qələmə aldığı əsərlərdə publisistikanın, və yaxud da "povestvovaniya"nın bədiilikdən daha çox dominantlıq etməsi faktı qabarıq şəkildə nəzərə çarpır. Ədəbiyatda bu cəhəti təhlil edərkən ədəbiyatşünas-alim Nizaməddin Şəmsizadə yazır: "Bu təkcə yaradıcılıq səriştəsindən asılı məsələ deyil. Tarix əsərdə bütöv bir obraz kimi görünmürsə onda publisistik üslub bədii üslubu üstələyə, sıxışdırıb çıxara bilər" (5, s.150). Süleyman Vəliyev sanki nə yolla olur-olsun istər bədii, istər yol qeydləri, istər esse, istərsə də xatirə-hekayə formalarında yaşadıqları (təkcə fərd olaraq yox, millət, xalq, toplum olaraq) haqsızlıqları, məşəqqətləri yazaraq fakta çevirməklə tarixiləşdirmək məqsədi güdür. Bu səbəbdən də yazıçının xatirə-hekayələrində bədiiliklə həqiqətin balansı pozulur. Çünki ədəbiyyat nəzəriyyəçisi Salidə Şərifovanın dediyi kimi "bədii-sənədli ədəbiyyat-sənədli janrların elementlərinin yer alması nəticəsində bədii janrın məzmun dəyişikliyinə uğradığı bədii əsərlərdir" (12, s.274). Süleyman Vəliyevin də bir çox əsərlərini oxuduqda yazıçı ilə birbaşa danışırmış, söhbətləşirmiş kimi təəssürat oyanır.

1944-cü ildə müttəfiqlərin hava hücumu zamanı bomba partlayarkən məşəqqətli əsirlik həyatı ilə barışmaq istəməyən Süleyman Vəliyev Əsgər adlı dostu ilə birlikdə Livorno şəhəri yaxınlığındakı əsir düşərgəsindən qaçmağa nail olur. Bu zaman yazıçı xüsusi qəhrəmanlıqları ilə partizanlar arasında Sila adı ilə məşhurlaşır. Süleyman Vəliyev partizan dəstələrinə qoşulması ilə başlayıb Azərbaycana dönməsi

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 261-269*

ilə bitən xatirələrini "Qürbətdən vətənə" xatirə-hekayəsində təfərrüatları ilə qeydə almışdır. "Qürbətdən vətənə" xatirə hekayəsində yazıçı Kastalinonun faşistlərdən azad edilməsində azərbaycanlı partizanların xüsusi qəhrəmanlıqlarından, düşdükləri çətin vəziyyətlərə baxmayaraq italyanlarla çiyin-çiyinə əzmlə vuruşmalarından hərarətlə bəhs edir. Livorno şəhərinin işğaldan xilas edilməsi əməliyyatlarında həm əsir kimi, həm də partizan kimi iştirakı ilə bağlı xatirələrini yazıçı maraqlı və gərgin süjetlə təqdim edir.

S.Vəliyev müharibədən qayıtdıqdan bir müddət sonra Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən uzun-uzadı istintaqa cəlb edilir. Sağ qalmış əsirlərə dövlət tərəfindən münasibət birmənalı deyildi. Həmin "münasibət"dən xəbərdar olan keçmiş əsirlər komitədəki sorğu-suala həmişə hazır vəziyyətdə yaşamağa alışmışdılar. Sovet dövlətinin keçmiş əsirlərə, xüsusən də müsəlmanlara qarşı münasibətini əks etdirən "Kartof möhürü də yaramadı" adlı hekayədə yazıçı keçmiş cəbhə yoldaşı ilə birlikdə partizan dəstəsində vuruşması ilə bağlı arayış əldə edə bilməmələrindən, sağ qalmaq üçün kartofun köməyi ilə saxta möhür hazırlayaraq sənəd düzəltməyə cəhd etmələrindən, bu sənədin də kara gəlməməsindən istehza ilə bəhs edir. Nəqli xarakter daşıyan hekayədə yazıçı şəxsi düşüncələrinə, xatirələrinə geniş yer verir: "Əsirlər-"günahsız müqəssirlər" özlərini gələcək fəlakətdən qorumaq üçün tədbirlər görür, hazırladıqları "izahatları" verəcəkləri ifadələri əzbərləyirdilər. Bu da böyük müsibət idi. Adam həmişə ümidlə yaşayır, özünə təsəlli verir, bəzən də "aldadır". Suda batarkən saman çöpünü tutub ona imdad yetirir" (10, s.3). Yazıçı bütün həyatı boyu sovet rejiminə sadiq vətəndaş olmasını sübut etmə cəhdlərini və rejimin münasibətini kədərlə müqayisə edir: "Başımız daşdan-daşa dəydi. Əsgərlik, ac-yalavac əsirlik günləri, partizan dəstəsinə qaçmaq, Afrikada "düşərgə" həyatı, sonra da vətənə qayıtmaq üçün keçirdiyimiz həyəcanlar, kartofdan möhür düzəltmək "oyunu". Acı gülüş, qanlı göz yaşları. Bir sözlə böyük insan faciəsi... Dünyaya bu münasibətləri görmək üçün mi gəlmişdik?!" (10, s.3).

Hekayədə yazıçı Çelyabinsk şəhərinə zəhərli sink zavoduna işləməyə göndərilən keçmiş əsirlərin 1946-cı ildə Stalinin əmri ilə işdən azad olunması zamanı dini ayrıseçkiliyə yol verilməsi faktına diqqəti çəkir. Hekayənin sonunda yazıçı gözlədiyi kimi Sibirə sürgün olunmasından yazır, təəssüflə taleyinin ən ağrılı etirafını edir: "Budur, taleyin ağır zərbəsi. Heyf, cəbhədə Sovet ordusunda, sonra İtaliya dağlarında ölümlə üz-üzə gəldiyimiz günlərdən. Əzab çəkib düzəltdiyimiz andıra qalmış kartof möhürü də tilsimi sındıra bilmədi, karə gəlmədi, yaramadı" (10, səh3).

Süleyman Vəliyev də bir qələm sahibi kimi şəraitdən asılı olaraq zamanın həqiqətlərini imkanları daxilində bəzən avtobioqrafik, bəzən bədii-publisistik üslubla oxucuya çatdırmağa çalışmışdır. Dövrün tələblərini nəzərə alaraq təhlil etdikdə yazıçının avtobioqrafik janra daha çox müraciət etməsinin səbəbini bu cür əsaslandırmaq olar ki, yazıçı öz xatirələrini qələmə almaqla, avtobioqrafik əsərlər yaratmaqla yaşadığı zaman kəsiyində mənsub olduğu xalqın taleyi ilə bağlı bir çox

hadisələri tipikləşdirərək bədiiləşdirməyə çalışmışdır. O, rejimin icazə verdiyi miqyasda həqiqətləri çatdırmağa səy göstərmişdir. Gah uşaqlıq illərinin qayğılı günlərinin, gah müharibədə sovet vətəndaşlarının qorxmazlığının, gah da əsir düşərgəsində döyüşçü sədaqətinin təcəssümünü əks etdirərkən xalqının güzəranı, sosial vəziyyəti, azadlıq imkanları və s. kimi cəhətləri işıqlandırmışdır. Bununla da, Süleyman Vəliyev əsərlərində özünün və eləcə də sovet insanının yaşamını yaratmağa müvəffəq olmuşdur.

**Ədəbiyyat:**

1. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, İstiqamətlər, Problemlər Bakı. “Elm və təhsil”, 2015, 550 s
2. Mustafazadə T. Əlieva F. Rusiya Dövlət Hərb Arxivi Materialları: 1920-1922-ci İllərdə Azərbaycanda Hərbi Siyasi Durumu Öyrənmək Üçün Mənbə Kimi. “Akademik Tarih ve Düşünce Dergisi”. 10 (2) 2023. (43-61)
3. Salamoğlu T. Müasir Azərbaycan romanının poetikası. Bakı, “Elm”, 2005. 280 s
4. Soljenitsın A. Qulaq arxipelaqı. 3 cilddə. I cild. Bakı. “Qanun nəşriyyat”, 2017. 544 s
5. Şəmsizadə N. Estetik meyar və bədii mahiyyət. Bakı. “Elm və təhsil”, 2022. 564 s
6. Şirinov F. Süleyman Vəliyevin yaradıcılığında tarixilik və müasirlik. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Sumqayıt. 2021. 146 s
7. Vəliyev S. Qanadı sınmış quş da uçarmış. Bakı. “Xan nəşriyyatı”, 2017. 104 s
8. Vəliyev S. Mənə sən de. Bakı. “Gənclik” 1985. 328 s
9. Vəliyev, S. Seçilmiş əsərlər 2 cilddə. II cild. Bakı. “Yazıçı”, 1983. 456 s
10. Vəliyev S. Şəxsi arxivi. Qovluq A2
11. Yaqublu N. Azərbaycan legionerləri. Bakı. “Bakı Universiteti nəşriyyatı”. 2002. 341 s

**Rus dilində**

12. Шарифова С. Жанровое смещение в романе: коммуникативно-социокогнитивный подход. Москва. «Московский Парнас», 2011. 399 л

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur**